# XX əsrin faciəsi - Xocalı soyqırımı

*C.Naxçıvanski adına Hərbi Liseydə Xocalı faciəsinin 25-ci ildönümü ilə əlaqədar tədbir keçirildi.*



Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət himni oxundu.

Erməni işğalçılarının Xocalıda azərbaycanlılara qarşı törətdikləri soyqırımını əks etdirən sənədli film nümayiş etdirildi. Sonra polkovnik-leytenant Kamran Nəsibov çıxış edərək bildirdi ki, dünyanı sarsıdan dəhşətli faciələrdən birini ermənilər 1992-ci ildə Xocalıda törətdilər. “Xocalı faciəsindən 25 il keçir. 1992-ci il fevralın 25-dən 26-sına keçən gecə erməni silahlı dəstələri SSRİ dövründə dislokasiya yeri Xankəndi şəhəri olan 366-cı motoatıcı alayının zirehli texnikasının və şəxsi heyətinin dəstəyi ilə Xocalı şəhəri üzərinə hücuma keçdilər. Bir gecənin içində şəhər yerləyeksan edildi. Evlər yandırıldı, insanlar amansızcasına qətlə yetirildi. Ermənilərin hücumu çox qəfil və güclü oldu. 25 min əhalisi olan Xocalı şəhəri çox mühüm strateji əhəmiyyətə malik coğrafi məkanda yerləşirdi. Buna görə də düşmən nəyin bahasına olursa-olsun, Xocalını işğal etməyə çalışırdı".

Zabit çıxışına davam edərək qeyd etdi ki, Xocalı faciəsinin dünyada təbliği üçün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" kompaniyası həyata keçirilir. "Bu məqsədlə Xocalı faciəsindən bəhs edən kitablar ingilis, fransız, rus və dünyanın başqa dillərinə tərcümə edilir, sənədli filmlər çəkilib xarici ölkələrin ictimaiyyətinə təqdim olunur. Bu gün Pakistan, Meksika, Kolumbiya, Çexiya, Bosniya və Herseqovina, Peru, Honduras və ABŞ-ın neçə-neçə ştatı Xocalı faciəsini tanıyıb. Bütün dünya görür ki, Xocalı faciəsi ermənilərin Azərbaycan xalqına qarşı sistemli soyqırımı siyasətinin bariz ifadəsi olmaqla yanaşı, beynəlxalq terrorizmin ən qəddar örnəklərindən biri, insanlığa qarşı indiyəcən törədilmiş cinayətlərin ən dəhşətlisidir".



Natiqin sözlərinə görə, əgər o günlərdə ordumuz güclü, qüdrətli olsaydı, təbiidir ki, belə dəhşətli faciə baş verməzdi. "Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin həyata keçirdiyi uğurlu islahatlar nəticəsində bu gün ordumuz dünyanın inkişaf etmiş ölkələrin orduları sırasındadır. Və düşmən təcavüzünü dəf etməyə, torpaqlarımızı erməni işğalçılarından azad etməyə qadirdir. Uğurlu aprel döyüşləri dediklərimizə bir daha sübutdur".

Sonra Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun icraçı direktoru, pedaqoqika üzrə fəlsəfə doktoru, dosent Oktay Səmədov, Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi Mərkəzinin direktoru, siyasət üzrə fəlsəfə doktoru Asif Usubəliyev, Azərbaycan Okinava Qoçiryu-ryu Karate-do və Kobudo növləri Federasiyasının Prezidenti, əməkdar bədən tərbiyəsi və idman xadimi Tarverdi Allahverdiyev, C.Naxçıvanski adına Hərbi Liseyin kursantı Bəhmən Məhəmmədli və başqaları da Xocalı faciəsinin ağrı-acılarından danışdılar.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**